

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 99 (21.509)

*1 iyun 2016-cı il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Rəsmi xronika*

Mayın 30-da Bakının Heydər Əliyev prospektində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin yeni inzibati binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsib.

Bina ilə tanışlıqdan sonra xatirə şəkli çəkdirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Əfqanıstan İslam Respublikasının Təhlükəsizlik Şurasının katibi Mohammad Xanif Atmarı qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kerol Meri Kroftsun etimadnaməsini qəbul edib.



## Naxçıvan şəhərində 28 May Respublika Günü münasibətilə tədbir keçirilmişdir

Mayın 28-də Naxçıvan şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 98-ci ildönümü – 28 May Respublika Günü münasibətilə gənclərin yürüşü keçirilmişdir.

Əvvəlcə yürüş iştirakçısı olan bir qrup gənc müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoymuşdur.

Heydər Əliyev adına Hərbi Liseyin kursantlarından, Əlahiddə Ümumqoşun Ordusunun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Alayının nümunəvi bölmələrinin əsgərlərindən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Gənclər və İdman Nazirliyinin, Yeni Azərbaycan Partiyası Heydər Əliyev adına Gənclər Birliyinin gənc fəallarından, Gənc Heydərçilərdən, muxtar respublikanın ali və orta ixtisas məktəblərinin tələbələrindən və idmançılardan ibarət minə yaxın gənc Heydər Əliyev Muzeyinin önündən başlayaraq Xatirə Muzeyinə və geriyə qədər olan yolu Hərbi Orkestrin ifa etdiyi təntənəli marş sədaları altında nizami addımlarla qət etmişlər.









Hər bir xalqın ən qiymətli sərvəti onun sahib olduğu dövlət müstəqilliyidir. Azərbaycan xalqı XX əsrdə iki dəfə müstəqillik əldə etmişdir. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Şərqdə ilk dəfə demokratik dövlət quruluşunun əsası qoyulmuşdur. Cəmi 23 ay yaşayan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın böyük dövlətçilik ənənələrinə malik olduğunu bütün dünyaya nümayiş etdirmişdir.

Azərbaycanda milli müstəqillik ideyasının reallaşdırılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin istər ötən əsrin 70-ci illərində Azərbaycanda həyata keçirdiyi tədbirlər, istərsə də ölkəmiz və xalqımız üçün ağır bir dövrdə – 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb siyasi fəaliyyət göstərdiyi zaman qəbul etdiyi tarixi qərarlar həqiqi dövlət müstəqilliyinin bünövrəsini yaratmışdır. Dahi şəxsiyyətin rəhbərliyi ilə Naxçıvanda müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul olunmuş, bununla da Naxçıvan Muxtar Respublikası xalqımızın suveren hüquqlarının və dövlət müstəqilliyinin bərpa edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilmişdir. Xalqın təkidli tələbi ilə 1993-cü ildə yenidən ali hakimiyyətə qayıdan ümummilli lider Azərbaycanı davamlı sosial-iqtisadi inkişaf yoluna çıxarmış, dövlət müstəqilliyimiz əbədi xarakter almışdır. Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan, eləcə də onun Naxçıvan Muxtar Respublikası özünün inkişaf dövrünü yaşayır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 28 May Respublika Günü münasibətilə keçirilən tədbirdə iştirak etmişdir.

Sonra Heydər Əliyev Muzeyinin önündə gənclər ümummilli liderimiz Heydər Əliyevə, Azərbaycana və üçrəngli bayrağımıza həsr olunmuş şeirləri bədii qiraət etmişlər.

Yürüş şəhər sakinləri tərəfindən alqışlarla qarşılanmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Təbrizdə 28 May Respublika Günü qeyd olunmuşdur

***Mayın 25-də Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğu tərəfindən 28 May Respublika Günü münasibətilə rəsmi qəbul təşkil edilmişdir.***

Əvvəlcə Azərbaycanın və İranın Dövlət himnləri səsləndirilmişdir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu vəzifəsini icra edən Şahin Əhmədov Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyətindən ətraflı bəhs etmiş, müstəqilliyin qazanılmasında xalqımızın üzləşdiyi çətinliklərdən və Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasında ümummilli liderimiz Heydər Əliyevin xidmətlərindən danışmışdır. Qeyd olunmuşdur ki, dahi şəxsiyyət xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkəmiz düşdüyü bəlalardan xilas olmuş, dövlət müstəqilliyimiz əbədi xarakter almışdır. Bu gün Azərbaycanda əldə olunan yüksək iqtisadi inkişaf və sabitlik dünya ölkələri ilə münasibətlərin genişləndirilməsinə imkan verir. Dost və qonşu dövlət olan İranla əlaqələrin inkişafı da bu mənada mühüm əhəmiyyət daşıyır. Son illər hər iki ölkə prezidentlərinin həyata keçirdiyi rəsmi səfərlər, imzalanan sənədlər, göstərilən qarşılıqlı dəstək əlaqələrin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə də İranın yaxın vilayətləri arasında əlaqələr bir çox istiqamətdə uğurla inkişaf etdirilir.



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin Şərqdə və İslam dünyasında demokratik quruluşlu ilk respublika olduğunu bildirmiş, ölkəmizin 70 il Sovetlər Birliyinin tərkibində qaldığını və 1991-ci ildə yenidən müstəqillik qazandığını diqqətə çatdırmış, bu gün Cənubi Qafqazın inkişaf edən ölkəsinə çevrilən Azərbaycanla İran arasındakı əlaqələrdən danışmışdır.

İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti valisinin müavini Səid Şəbüstəri çıxış edərək 28 May Respublika Günü münasibətilə təbriklərini çatdırmış, İran-Azərbaycan əlaqələrinin inkişafı sahəsində həyata keçirilən tədbirlərdən bəhs etmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov öz çıxışında Azərbaycanın müstəqillik tarixi haqqında məlumat vermişdir.

Çıxışlardan sonra Azərbaycanın sosial-iqtisadi inkişafından, turizm potensialından və mədəni irsindən bəhs edən film nümayiş olunmuş, Azərbaycan xalq mahnıları səslənmiş, ziyafət verilmişdir.

Rəsmi qəbulda İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin rəhbəri, İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin dövlət rəsmiləri, Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu, ictimaiyyətin nümayəndələri və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etmişlər.

**"Şərq qapısı"**

*1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür*

# Uşaqlara qayğı ölkənin gələcəyinə qayğıdır

*Uşaqların hüquqlarının qorunması, onların layiqli vətəndaş kimi formalaşdırılması hər bir dövlətin başlıca sosial məsuliyyətidir. Ötən əsrin 70-ci illərindən başlayaraq ulu öndər Heydər Əliyev uşaqlara qayğını əsas istiqamət kimi müəyyənləşdirmiş, uşaqların təhsilinə, dünyagörüşlərinin formalaşdırılmasına və sağlamlıqlarının qorunmasına diqqət artırılmışdır.*

***“Mən həyatımın, bu günümün, gələcəyimin xoşbəxtliyini məhz uşaqlara qayğıda, diqqətdə görürəm”***, – deyən dahi şəxsiyyətin rəhbərliyi ilə müstəqillik illərində ölkəmizdə dövlət uşaq siyasəti yeni forma və məzmun qazanmış, bu sahədə zəngin qanunvericilik bazası yaradılmış, “Uşaq hüquqları haqqında” və “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. Bununla yanaşı, ölkəmiz Birləşmiş Millətlər Təşkilatının “Uşaq hüquqları haqqında” Konvensiyasına qoşulmuş, “Uşaq hüquqları haqqında” Bəyannaməni qəbul etmişdir.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən dövlət uşaq siyasəti uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə uşaq problemlərinin həllinə yönəlmiş çoxsaylı dövlət proqramları qəbul edilmiş, uşaq hüquqlarının etibarlı təminat mexanizmləri yaradılmış, hər bir sahədə geniş vüsət almış quruculuq işləri uşaqların təhsili və intellektual inkişafı istiqamətinə də yönəldilmişdir. Uşaqlara yüksək diqqət və qayğı ilə yanaşan Azərbaycan Prezidenti demişdir: ***“Uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə öz istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir. Uşaqlarımızın hərtərəfli şəxsiyyət və ölkəmizin layiqli vətəndaşı olaraq formalaşmaları müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir”.***



Naxçıvan şəhər 10 nömrəli tam orta məktəb

Naxçıvan Muxtar Respublikasında da uşaqlarla bağlı dövlət siyasəti uğurla həyata keçirilir, onların sağlamlığının qorunmasına, təhsilinə, təlim-tərbiyəsinə xüsusi diqqət və qayğı göstərilir. Hazırda muxtar respublika əhalisinin 159 min 103 nəfəri uşaqlardır. Uşaqların sosial ehtiyaclarının hərtərəfli təmini, onların yüksək mənəvi mühitdə, milli dəyərlər əsasında tərbiyəsi, təhsil alaraq layiqli şəxsiyyət kimi yetişməsi diqqət mərkəzində saxlanılır. Son illər muxtar respublikada 200-dən artıq ümumtəhsil məktəbi, 17 məktəbəqədər təhsil müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Təhsil sistemində tətbiq edilən yeniliklər, xüsusilə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, ümumtəhsil məktəbləri ilə muxtar respublikada fəaliyyət göstərən muzeylər arasında distant dərslərin keçirilməsi uşaqların geniş dünyagörüşlü və vətənpərvər ruhda böyüdülməsi sahəsində atılan mühüm addımlardandır. Bu gün muxtar respublikanın ümumtəhsil məktəblərində 700-dən çox elektron lövhə quraşdırılmış, hər 12 şagird bir kompüterlə təmin olunmuşdur. İstifadədə olan kompüterlərin 87 faizi internetə qoşulmuşdur.



Naxçıvan şəhərində Uşaq Bərpa Mərkəzi

Peşə təhsili infrastrukturunun yaxşılaşdırılması, texniki-peşə məktəblərində təlim-tərbiyə prosesinin səmərəliliyinin yüksəldilməsi istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilir. Son illər Naxçıvan, Ordubad və Şərur şəhərlərində Texniki-Peşə və Sürücülük Məktəb kompleksləri tikilərək istifadəyə verilmiş, ixtisaslı kadr hazırlığına başlanılmışdır.



Naxçıvan şəhər 3 nömrəli uşaq bağçası



Bu gün uşaq və gənclərin fiziki cəhətdən sağlam böyüməsi diqqətdə saxlanılır. Belə ki, muxtar respublikada 2 olimpiya-idman kompleksi, Şahmat Mərkəzi, uşaq-gənclər şahmat məktəbləri, idman məktəbləri, Stend və Sportinq Atıcılıq Mərkəzi, ümumilikdə, 40-dan çox idman obyekti istifadəyə verilmiş, ümumtəhsil məktəbləri ən müasir standartlara cavab verən idman zalları ilə təmin olunmuşdur. Hazırda muxtar respublikada 30 min 369 uşaq idmanla məşğul olur.

Uşaqların istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili, peşə məktəblərinə cəlbi, cəmiyyətin ictimai-mədəni həyatındakı iştirakını təmin etmək məqsədilə də mühüm tədbirlər həyata keçirilir. Muxtar respublikada fəaliyyət göstərən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, Uşaq Filarmoniyası, Uşaq Kitabxanası kimi mədəniyyət ocaqları, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzi, şahmat məktəbləri və onlarla digər məktəbdənkənar tərbiyə müəssisələri bu baxımdan mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanına uyğun olaraq “Gənc istedadların “Qızıl kitabı”nın yaradılması, 6 nəfər istedadlı uşağın adının bu kitaba salınması və onlara xüsusi təqaüdlərin verilməsi istedadlı uşaqlara göstərilən qayğının daha bir ifadəsidir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası” təsdiq edilmiş, dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilmiş, monitorinq qrupu yaradılmışdır. Uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması və uşaq hüquqlarının pozulması hallarının qarşısının alınması məqsədilə 5 ümumtəhsil, 1 məktəbəqədər təhsil, 1 uşaq səhiyyə müəssisəsində monitorinqlər aparılmışdır. Bundan əlavə, cari ilin fevral ayında muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı istifadəyə verilmiş, məlumat bankına müvafiq məlumatları daxil edəcək mərkəzi və yerli icra hakimiyyəti orqanlarının məsul şəxsləri üçün seminar keçirilmiş, bu günədək 358 uşaq haqqında məlumatlar elektron məlumat bankına daxil edilmişdir.

Son illər sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, onların təhsilinin, reabilitasiyasının səmərəli təşkili təmin edilmişdir. Hazırda muxtar respublikanın ümumtəhsil məktəblərində sağlamlıq imkanları məhdud 825 uşaq təhsil alır. Bundan başqa, 23 sağlamlıq imkanları məhdud uşaq distant təhsilə cəlb edilmiş, onların yaşadığı mənzillərdə asinxron rəqəmsal abunəçi avadanlığı, noutbuk və veb-kameralar quraşdırılmışdır. Bu qəbildən olan uşaqların cəmiyyətə inteqrasiyasını möhkəmləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” qəbul edilmişdir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların bir qrupu valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, eləcə də aztəminatlı ailələrin uşaqlarıdır. Humanist və xeyirxahlıq prinsiplərinin dövlət uşaq siyasətində mühüm yer tutduğu muxtar respublikada həm dövlət uşaq müəssisələrində, həm də ailələrdə himayə və qəyyumluqda yaşayan uşaqlara geyim dəstləri və dərs ləvazimatları verilir, onların tarixi-memarlıq abidələri və muzeylərlə tanışlığı, istirahət guşələrinə səyahətləri təşkil olunur. Uşaqların yetkin şəxsiyyət olaraq formalaşmasında, dövlət və cəmiyyət üçün yararlı insanlar kimi yetişməsində, şübhəsiz, onların ailə mühitində böyüməsinin, lazımi qayğı ilə əhatə olunmasının təsiri böyükdür. 2016-cı ilin ötən dövründə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən valideyn himayəsindən məhrum olmuş 4 uşaq himayə və qəyyumluğa verilmiş, 2 uşağın övladlığa götürülməsinin uçotu aparılmışdır. Həmçinin bu qəbildən olan uşaqların tarixi-memarlıq abidələri və muzeylərlə tanışlığı, eləcə də Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunur.

Uşaq ədəbiyyatı uşaqların vətənpərvərlik ruhunda böyüməsində, milli dəyərlərimizi mənimsəməsində və dünyagörüşlərinin formalaşmasında əsas vasitələrdəndir. Buna görə də muxtar respublikada uşaqların mütaliəsinə diqqət artırılır, onların zövqünə uyğun, asanlıqla qavraya biləcəkləri kitablar nəşr olunur, müxtəlif səpkili müsabiqələr keçirilir. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin xətti ilə “Uşaqlar və Günəş” almanaxı, “Təmsillər”, “Şeir və hekayələr”, “Poema və pyeslər” adlı uşaq kitablarının nəşr olunması uşaqlarda mütaliəyə marağı artırmışdır.

*Cəmiyyətin ən həssas və kövrək təbəqəsi olan uşaqlara bağlı qarşıya qoyulan vəzifələr bundan da uğurla yerinə yetirilməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Əgər xalqımızın, dövlətimizin gələcəyini düşünürüksə, bu gələcəyin təminatçısı olan uşaq və gənclərin sağlam mühitdə yetişməsi qayğısına qalmalı, onların təlim-tərbiyəsi ilə ciddi məşğul olmalıyıq”.***

## Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbirlər keçirilib

*1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Əmək və Əhalinin Sosial Müdafiəsi və Səhiyyə nazirliklərinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində tədbir keçirilib.*

Sağlamlıq imkanları məhdud uşaqların iştirak etdiyi tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Sona Məmmədova uşaqları əlamətdar gün münasibətilə təbrik edərək muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiya olunması istiqamətində görülən işlərdən, həyata keçirilən tədbirlərdən danışıblar. Bildirilib ki, son illər bu qəbildən olan uşaqların cəmiyyətə inteqrasiyası, onların təhsilinin, reabilitasiyasının səmərəli təşkili təmin edilib, müasir tələblərə cavab verən müəssisələr tikilib istifadəyə verilib. Həmin müəssisələrdə uşaqlara xidmət ən yüksək səviyyədə qurulub, müalicələri üçün münbit şərait yaradılıb.



Sonra 19 uşağa hədiyyələr təqdim edilib.

Çay süfrəsi arxasında keçirilən tədbirdə M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı aktyorlarının ifasında “Qırmızı papaq” tamaşasından səhnəciklər təqdim olunub.

* * *

1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə daha bir tədbir Ordubad şəhərindəki M.Füzuli adına tam orta internat məktəbində keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyev və Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli çıxış edərək hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlara və aztəminatlı ailələrin uşaqlarına göstərilən dövlət qayğısından bəhs ediblər.

Məktəbin direktoru Musa Ağayev xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərilən diqqətə görə minnətdarlığını bildirib.

İnternat məktəbində təhsil alan valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan 15 uşağa geyim dəstləri verilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Miqrasiya proseslərinin idarə olunması müasir tələblər səviyyəsindədir



***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən islahatlar nəticəsində ciddi iqtisadi uğurlara nail olunmuş, sürətli inkişaf üçün zəngin potensial formalaşmış, həyata keçirilən tarazlaşdırılmış iqtisadi siyasət öz bəhrəsini vermiş, əldə edilmiş makroiqtisadi sabitlik innovasiyalı iqtisadiyyata keçidin təmin olunması üçün böyük imkanlar yaratmışdır.***

Yeni müəssisələrin və iş yerlərinin yaradılması, tikinti sektorunun intensiv inkişafı, kommunal xidmət və sosial infrastrukturun müasirləşdirilməsi, sahibkarlıq mühitinin yaxşılaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması, insanların maddi rifah halının yüksəlməsində əhəmiyyətli nailiyyətlərin əldə olunması əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin Naxçıvan Muxtar Respublikasına olan marağını artırmışdır.

Muxtar respublika ərazisində miqrasiya proseslərinin tənzimlənməsi, onların uçotunun aparılması, miqrasiya siyasətinin həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 31 may 2010-cu il tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti yaradılmışdır.

Dövlət Miqrasiya Xidməti əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq, həmçinin muxtar respublika ərazisində haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün müvafiq icazələrin verilməsi, vətəndaşlıq mənsubiyyətinin və qaçqınlıq statusunun müəyyənləşdirilməsi, eyni zamanda müvəqqəti olma müddətinin uzadılması ilə bağlı qərarlar qəbul edir. Azərbaycan Respublikasında yaşayan və müvəqqəti olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması, miqrasiya proseslərinin idarə edilməsində iştirak edən dövlət orqanlarının zəruri informasiya ilə təmin olunması, miqrasiya ilə bağlı sənədləşmə, yoxlama, sorğu, təhlil işlərinin avtomatlaşdırılması və bu sahədə göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi məqsədilə miqrasiya sahəsində vahid informasiya sistemi –Vahid Miqrasiya Məlumat Sistemi yaradılmışdır. Miqrasiya proseslərinin həyata keçirilməsində böyük rolu olan bu sistemin "Giriş-çıxış və qeydiyyat idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi"nə inteqrasiyası təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında çoxşaxəli iqtisadiyyatın formalaşdırılması və sosial sahənin inkişafı nəticəsində təkcə 2015-ci ildə 2908 yeni müəssisə və iş yerlərinin yaradılması muxtar respublikamıza gələn əməkçi miqrantların sayının artmasına səbəb olmuşdur. Fəaliyyəti dövründə daxili əmək bazarının qorunması kimi mühüm missiyanı yerinə yetirən Dövlət Miqrasiya Xidməti əcnəbi işçi qüvvəsindən istifadənin qanunamüvafiq olaraq tənzimlənməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmişdir.

Naxçıvan Muxtar Respublikası region üçün böyük əhəmiyyət kəsb edən nəqliyyat dəhlizlərinin kəsişdiyi mövqedə yerləşdiyindən burada çoxsaylı tranzit miqrantların hərəkəti müşahidə edilir. Dövlət Miqrasiya Xidmətinin qarşısında duran vəzifələrdən biri də bu qəbildən olan miqrantların ölkə ərazisində məskunlaşmalarının və qanunsuz olaraq muxtar respublika ərazisindən tranzit keçidi kimi istifadə edərək üçüncü ölkəyə keçmələrinin qarşısının alınmasıdır. Muxtar respublikanın ölkə xaricinə giriş-çıxış qapıları sayılan Sədərək, Culfa, Şahtaxtı və Naxçıvan Beynəlxalq Hava Limanı sərhəd-buraxılış məntəqələrində miqrasiya bölmələri tərəfindən əcnəbilərin təlimatlandırılması prosesində böyük irəliləyişlər əldə edilmiş, qanunsuz miqrasiyanın qarşısının alınmasına nəzarətin daha effektiv şəkildə həyata keçirilməsinə başlanılmışdır. Bundan əlavə Dövlət Miqrasiya Xidməti tərəfindən miqrasiya sahəsi üzrə maarifləndirmənin müxtəlif istiqamətlərdə aparılması məqsədilə sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində elektron məlumat köşklərinin yerləşdirilməsi miqrasiya sahəsi üzrə xidmət növləri ilə bağlı məlumatların 3 dildə (Azərbaycan, rus və ingilis dillərində) yazılı və səslə vətəndaşlara çatdırılma imkanı yaratmışdır.

Muxtar respublikanın bugünkü sabitliyi, təhlükəsizliyi buraya səfər edən turistlərin sayının artmasına səbəb olmuşdur. Gəlişinin məqsədi, məramı, niyyəti fərqli olan hər bir xarici ölkə vətəndaşına Azərbaycan qonaqpərvərliyini göstərmək, onlara hərtərəfli yardım etmək milli dəyərlərimizin göstəricisi olmaqla, həm də Dövlət Miqrasiya Xidməti sahəsində çalışan hər bir əməkdaşın vəzifə borcudur. Çünki Naxçıvana gələn hər bir turist, eyni zamanda ölkəmiz haqqında informasiya ixrac edən xoşməramlı elçidir. İran İslam Respublikası və Türkiyə Respublikası ilə sərhəd- keçid rejiminin sadələşdirilməsi, habelə Naxçıvan Beynəlxalq Hava Limanından xarici reyslərin təşkili Naxçıvan Muxtar Respublikasına turizm məqsədilə gələn miqrantların sayını artırmışdır. 2015-ci ildə Naxçıvana gələn miqrantların sayı 390 min nəfərə çatmışdır. Bu məqsədlə də Dövlət Miqrasiya Xidməti işini günün tələbləri səviyyəsində quraraq bu sahədə fəaliyyətini gücləndirmişdir. Belə ki, sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində Vahid Miqrasiya Məlumat Sisteminin fəaliyyəti təmin edilmiş və ölkəyə daxil olan əcnəbilərin qeydiyyata alınmaları üçün lazımi şərait yaradılmışdır. Muxtar respublika ərazisində fəaliyyət göstərən mehmanxanaların Dövlət Miqrasiya Xidmətinin elektron resurslarından maksimum şəkildə yararlanmasına şərait yaradılmış, mehmanxanalarla Dövlət Miqrasiya Xidməti arasında "Elektron hökumət portalı" üzərindən elektron sənəd dövriyyəsinin aparılması ilə ölkəyə gələn əcnəbilərin olduğu yer üzrə qeydiyyata alınması prosedurу sadələşdirilmişdir.

Üç dildə vətəndaşların istifadəsinə verilən rəsmi internet səhifəsinin fəaliyyət göstərməsi dünyanın müxtəlif yerlərindən əcnəbi və vətəndaşlığı olmayan şəxslərə müraciətetmə imkanı yaradır və miqrasiya sahəsi üzrə göstərilən xidmətlərin keyfiyyətinin artırılmasında böyük rol oynayır. Eyni zamanda saytda da muxtar respublikanı əks etdirən şəkillərin yerləşdirilməsi, Naxçıvan Muxtar Respublikasının portalına keçidin verilməsi əcnəbilərdə həm muxtar respublika barədə ilkin təsəvvürün yaranmasına, həm də ölkəyə gəldiyi vaxtdan miqrasiya qanunvericiliyi ilə tanış olmaqla, müraciətlərin göndərilməsinə imkan yaratmışdır. Saytda "Elektron xidmət" və "Onlayn ödəmə" bölməsinin istifadəyə verilməsi, "Sual-cavab" və "Müraciətlər" bölməsinin daim istifadəçilərə açıq olması əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri, eyni zamanda Azərbaycan Respublikası vətəndaşlarını məkandan asılı olmayaraq miqrasiya qanunvericiliyi ilə bağlı maraqlandıran sualların operativ cavablandırılmasına imkan verir. Müraciətlərin cavabı həm xidmətin elektron poçt ünvanına, həm də Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti ilə Naxtel Şirkəti arasında bağlanmış müqavilə əsasında fəaliyyəti təmin olunmuş Toplu SMS xidməti vasitəsilə müraciət edənin mobil telefonuna göndərilir. Həmçinin vətəndaşların müraciət etmək hüququnun təmin edilməsi məqsədilə yaradılmış Dövlət Miqrasiya Xidmətinin "202-Miqrasiya Məlumat Mərkəzi"nin fəaliyyətinin də miqrasiya sahəsi üzrə müraciətlərin cavablandırılmasında və vətəndaşların lazımi informasiyaları əldə edərək maarifləndirilməsində böyük rolu var.

Bu gün muxtar respublikada bütün sahələrə olduğu kimi, qloballaşan dünyada əhəmiyyətinə görə ön cərgələrdə dayanan miqrasiya sahəsinə də daim həssaslıqla yanaşılır, xüsusi əhəmiyyət verilir, yüksək səviyyədə diqqət və qayğı göstərilir. Bu diqqət və qayğının yüksək göstəricisi isə 2015-ci il mayın 27-də – xidmətin yaradılmasının beşinci ildönümündə müasir standartlara cavab verən, yüksək texnologiyaya malik və xidmət əməkdaşlarının fəaliyyəti üçün yeni imkanlara şərait yaradan inzibati binanın istifadəyə verilməsi olmuşdur. Binada mərkəzi server sistemi qurulmuş və Dövlət Miqrasiya Xidmətinin "Elektron hökumət" portalına qoşulması təmin edilmişdir. Portala qoşulmaqla Dövlət Miqrasiya Xidməti üçün konkret sahələr üzrə müəyyənləşdirilmiş 9 xidmət növü üzrə sahələr avtomatlaşdırılaraq istifadəçilərə təqdim edilmiş, yeni imkanlar vasitəsilə vətəndaşlarla Dövlət Miqrasiya Xidməti arasında olan məsafəni, sərf olunan vaxtı minimuma endirməklə daha operativ, keyfiyyətli xidmətin göstərilməsi təmin olunmuşdur.

Muxtar respublikada miqrasiya proseslərinin idarə edilməsində beynəlxalq təcrübənin öyrənilməsi və bu sahədə kadr potensialının formalaşdırılması da daim diqqət mərkəzində saxlanılır. Belə ki, bu məqsədlə xidmət əməkdaşları "Qanunsuz miqrantların aşkarlanması və qayıdışın icrası" mövzusunda Niderland Krallığında keçirilən təlimdə və "Cənubi Qafqazda səmərəli readmissiya idarəçiliyinin yaradılmasının dəstəklənməsi" layihəsi çərçivəsində Polşa, Belçika və Almaniyada keçirilən tədbirlərdə iştirak etmiş, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi, həmçinin işə yeni qəbul olunmuş əməkdaşların peşə hazırlığının yüksəldilməsi məqsədilə mütəmadi təlim kursları təşkil edilmişdir. Belə ki, 2013-cü ildə Naxçıvan Muxtar Respublikasında Beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən "Miqrasiya məsələləri: miqrasiya idarəçiliyinə dair təcrübələrin bölüşdürülməsi" adlı beynəlxalq konfrans, 2014-cü ildə Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı ilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən "Sığınacağın istiqamətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi"nə dair birgə təlimlər keçirilmişdir. Təlimlərdə bir sıra xarici dövlətlərin və beynəlxalq təşkilatların rəhbər nümayəndələri iştirak etmişlər. 2015-ci ildə Azərbaycan nümayəndə heyəti Beynəlxalq Miqrasiya Təşkilatının təşkilatçılığı ilə miqrasiya üzrə beynəlxalq dialoq çərçivəsində "Miqrantlar və şəhərlər" mövzusunda konfransda iştirak etmişdir. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarının iştirak etdiyi bu tədbirlər beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, beynəlxalq insan hüquqları konsepsiyası və digər bu kimi məsələlərlə bağlı məlumatların sistemləşdirilməsi, dinləyicilərə yeni biliklərin verilməsi muxtar respublikada da miqrasiya proseslərinin tənzimlənməsi və idarə edilməsinin təkmilləşdirilməsində mühüm rol oynamışdır.

***Miqrasiya prosesi qloballaşan dünyanın ayrılmaz tərkib hissəsidir. Muxtar respublikamızın sürətli sosial-iqtisadi inkişafı miqrasiya proseslərini sürətləndirdiyindən bu sahəyə nəzarətin gücləndirilməsi də vacib məsələlər sırasında durur. İşini muxtar respublikada əldə olunan sürətli sosial-iqtisadi inkişaf tempinə uyğun quran Dövlət Miqrasiya Xidmətinin kollektivi bundan sonrakı fəaliyyətində də yeni-yeni uğurlar əldə edəcək, göstərilən etimadı doğrultmaq üçün daha səylə çalışacaqdır.***

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

***On iki il əvvəl yaradılmış Kəngərli rayonunun sosial-iqtisadi inkişafında sənaye və kənd təsərrüfatı məhsulları istehsalı mühüm yer tutur. Rayonun təbii və torpaq sərvətləri, əmək ehtiyatları burada tikinti materiallarından duz hasilatınadək genişprofilli məhsullar istehsalına şərait yaradır. Muxtar respublikamızda sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı bu rayonda da kiçik və orta biznesin inkişafına şərait yaradıb, bir çox yeni emal müəssisələri fəaliyyətə başlayıb.***

## Kəngərli rayonunda emal sənayesi genişləndirilir



Regional inkişafda yerli xammalın emalı əsasında istehsal müəssisələrinin yaradılması mühüm rol oynayır. Bu həm iqtisadiyyatın şaxələndirilməsi, həm də daxili tələbatın təmin olunması prinsipləri baxımından ən sərfəli iqtisadi qərarlardan biridir. Buna görə də muxtar respublikamızda həyata keçirilən iqtisadi siyasət tədbirləri arasında xüsusən bölgələrdə emalyönümlü istehsal müəssisələrinin yaradılması dövlətin əsas prioritetlərindən biri sayılır. Coğrafi cəhətdən əlverişli mövqedə yerləşən rayonun yol-nəqliyyat imkanları burada istehsal olunmuş məhsulların bazar imkanlarını da genişləndirir. Kəngərlidə fəaliyyət göstərən istehsal müəssisələrinə nəzər saldıqda, burada onların rayonun əksər yaşayış məntəqələrində olduğunu görməkdəyik. Bu, bir tərəfdən yerli işçi qüvvəsinin imkanlarından, digər tərəfdən də mövcud xammal və enerji potensialından maksimum istifadəyə imkan yaradır. Son illər rayon ərazisində yaradılmış bir sıra mühüm istehsal müəssisələri onu deməyə əsas verir ki, burada emal sənayesi üzrə geniş perspektivlər vardır.

Hazırda Kəngərlidə yerli xammal əsasında sement və daş məhsulları istehsal olunur. Burada istehsal olunan Naxçıvan sementinin, Çalxanqala mərmərinin, Qarabağlar travertininin keyfiyyəti və iqtisadi əhəmiyyəti haqqında çox deyilib. Bundan əlavə, Qarabağlar kəndindəki "Asnı" balıqçılıq təsərrüfatı, Böyükdüz kəndindəki "Naxçıvan bağları" istixana kompleksi də rayon ərazisində yerləşən mühüm əhəmiyyətli istehsal müəssisələrindəndir. Bunlarla yanaşı, Kəngərli rayonunun mərkəzində və digər kəndlərdə yaradılmış müxtəlif kiçik sahibkarlıq subyektləri də vardır ki, bu müəssisələrdə mebel, kərpic, şirniyyat məhsulları, çörək istehsal olunmaqda, onlarla sayda yerli sakin iş yerləri ilə təmin edilməkdədir. Rayon mərkəzi Qıvraq qəsəbəsindəki "Şahanə" Mebel İstehsalı Müəssisəsi, Qabıllı kəndində müxtəlif çeşidlərdə limonad istehsal edib muxtar respublikamızda daxili bazara məhsul çıxaran "Fitonad" Kiçik Müəssisəsi, Xok kəndində fəaliyyət göstərən "Nilay" Şirniyyat və Un Məmulatları İstehsalı Müəssisəsi, Çalxanqala, Qabıllı, Xok, Qarabağlar kəndlərindəki çörək istehsalı sahələri belə emal müəssisələrindəndir.

"Şahanə" Mebel İstehsalı Müəssisəsi cari ilin əvvəlində sahibkar Əli Cəfərov tərəfindən yaradılıb. Burada hazırda ofis, mətbəx, yataq və yumşaq mebel olmaqla, 4 çeşiddə məhsul istehsal olunur. Türkiyədən gətirilmiş müasir istehsal avadanlığının istehsal gücü gün ərzində bir dəst mebel sifarişini tam yerinə yetirməyə imkan verir. Artan tələbatı ödəmək üçün gələcəkdə işlərin genişləndirilməsi planlaşdırılır. Müəssisədə yığılmış mebel dəstləri onun internet səhifəsində də reklam olunur. İstehsal edilmiş mebellər alıcıların ünvanlarına çatdırılır. Burada işçilər üçün müasir iş və istirahət şəraiti də yaradılıb.

"Fitonad" Kiçik Müəssisəsi 2014-cü ilin aprel ayında istifadəyə verilib. Müəssisədə sanitar-gigiyenik qaydalara əməl olunmaqla müxtəlifhəcmli plastik və şüşə taralarda 5 növdə – tərxun, armud, üzüm, qızılgül, portağal şirələrindən hazırlanmış "Fitonad" limonadları istehsal edilir. "Fitonad" əmtəə nişanı ilə satışa çıxarılan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Bu müəssisədə 5 nəfər daimi işlə təmin olunub.

Xok kəndində fəaliyyət göstərən "Nilay" Şirniyyat və Un Məmulatları İstehsalı Müəssisəsi üçün müasir istehsal şəraiti yaradılıb. Müəssisədə bütün texnoloji proseslərə, texniki təhlükəsizlik və sanitar-gigiyenik qaydalara ciddi əməl edilir. Daxili bazarın tələbatına uyğun olaraq istehlakçılara müxtəlif çeşidlərdə məhsullar təqdim edən müəssisədə lavaş, kürə çörəyi, Şərq, milli və Avropa şirniyyatları istehsalı təşkil olunub. Ümumilikdə, burada 60-a yaxın çeşiddə məhsul istehsal olunur. Burada on bir nəfər daimi işlə təmin edilib.

Kəngərlilər işgüzar insanlardır. Bu rayonun sakinləri müxtəlif məhsulların emalı və istehsalı üzrə geniş imkanlara malikdir. Fərdi təsərrüfatlarda istehsal olunan ət və süd məhsullarının, meyvə və tərəvəzin, giləmeyvənin emal olunub yüksəkkeyfiyyətli yerli məhsul kimi bazara çıxarılması üçün də yaxşı şərait və əlverişli biznes mühiti vardır. Bütün bunlar Kəngərlidə kiçik sahibkarlığın geniş imkanlar açır.

**Əli CABBAROV**

*Gözəl təbiəti olan Naxçıvan torpağının zəngin bitki örtüyü var. Tarixən bu qədim diyarın əhalisi bu bitkilərdən müxtəlif məqsədlər üçün istifadə edib. Bu bitkilər bəzən insanların geyiminə, bəzən də dərmanlarına çevrilib, onları müxtəlif xəstəliklərdən qoruyub, səhhəti pozulanlara şəfa verib. Əbəs yerə demirlər ki, təbiətdə bütün xəstəliklərin şəfası var. Bu şəfanı müalicəvi dərman bitkilərindən almaq olar. Sadəcə, həmin bitkilərin, necə deyərlər, dilini bilmək, onlardan istifadə qaydalarını mənimsəmək lazımdır. Digər bir mühüm məsələ isə bu bitkilərin mühafizə edilib gələcək nəsillərə ötürülməsidir.*

# Dərman bitkilərini qoruyaq



Yurdumuz gül-çiçəkli bahar fəslini yaşayır. Dağların yamacları əlvan çiçəklərlə, müxtəlif otlarla örtülüb. Onların arasında minbir dərdə dava olan bitkilər də var. İstirahət günlərində yolumuzu təbiətin qoynuna salanda bu bitkiləri toplayan insanlara da tez-tez rast gəlirik. Təəssüf ki, bəzən bu bitkilərin kortəbii şəkildə toplanmasının da şahidi oluruq.

Bitkilərin insanlar tərəfindən necə toplandığını müşahidə etmək üçün bitki aləmi zəngin olan dağətəyi bir ünvana – Ordubad rayonunun Unus kəndinə üz tutduq. Dörd bir tərəfi yaşıllıqla, şiş uclu dağlarla əhatə olunmuş bu kəndin dərman bitkiləri bitən ərazilərində belə bitkiləri toplayan çox sayda insanın olduğunu gördük. Kənd sakini, yaşı altmışı ötmüş Həbibə Babayeva ilə də burada tanış olduq. Onunla söhbət əsnasında dedi ki, hər il yaz mövsümündə buraya üz tutur, bu bitkilərdən özünə lazım olduğu qədər toplayır, sonra onları qurudaraq il ərzində istifadə edir. Həmsöhbətimiz bizi inandırmağa çalışdı ki, istifadə etdiyi bitkilər həkimlərin ona reseptlə yazdığı dərmanlardan daha çox fayda verir. Ancaq hər bir müalicəvi dərman bitkisindən qədərincə istifadə etmək lazımdır. Bitkilərin yığımında da son dərəcə ehtiyatla davranmalı, sonrakı illərdə bu bitkilərə olan ehtiyacımızı ödəmək üçün onların kökünün kəsilməsinə razı olmamalıyıq.

Buraya Naxçıvan şəhərindən gəlmiş Xədicə Səfərova isə deyir ki, dərman bitkiləri toplamağı və onlardan istifadə etməyi, bir növ, adət halına gətirib. Onları necə toplamaq lazım gəldiyini, tələb edilən kimi toplamağın vacib olduğunu yaxşı bilir: “Bəzən dərman bitkiləri toplamağa gələnlər, bitkilərin çiçəklərini toplamalı olduqları halda, tənbəllik edib kəsə yola əl atır, onları kökündən qoparırlar. Bu hallarla tez- tez qarşılaşıram və həmin adamlara irad tuturam. Deyirəm ki, bu, tək bizim üçün deyil. Yaxşı istifadə etsək, gələcək nəsillər də təbiətimizin bizə olan hədiyyəsindən faydalana biləcəklər. Niyə biz ancaq özümüzü düşünməliyik? Axı bizdən sonra da insanların bu bitkilərə ehtiyacı olacaq”.

“Dərman bitkilərinin toplanması, qurudulması və saxlanılması müəyyən qaydalar gözlənilməklə aparılmalıdır”. Bunu Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əsgər Həsənov deyir: “Azərbaycanda 1800 növdən artıq müalicəvi əhəmiyyətli dərman bitkisi yayılıb və bu, ümumi floramızın 40 faizini təşkil edir. Yemişan, kəklikotu, adaçayı, qırxbuğum, qatırquyruğu, boymadərən, bədrənc, gicitkən, gülxətmi, palıd, söyüd, nar, əvəlik, andız, qaraqınıq, yarpız, dağ nanəsi və sair kimi ehtiyatı bol olan bitkilərdən xalq təbabətində istifadə olunsa da, onlardan hələ də dərman preparatları kimi istifadə edə bilmirik”.

Əsgər Həsənov onu da bildirdi ki, bitkilər heç vaxt yağışlı, sisli və rütubətli havalarda yığılmamalıdır. Yığmaq üçün ən uyğun saat isə $10^{00}$-$16^{00}$ arasıdır. Səhər şehindən nəmlənmiş bitkilər bu saatlar arası artıq qurumuş olur. Yalnız təmiz və ləkəsiz olan bitkiləri toplamaq lazımdır. Qurudulmaq üçün yığılan bitkilər (köklər xaric) qəti yuyulmamalıdır! Bitkinin yığıldığı yerlərin təmizliyi də çox vacibdir. Şəfalı bitkilər avtomobil yolu kənarından yığılmamalıdır. Bitkilərin dərmanlanmamış ərazidən yığılmasına diqqət etmək lazımdır. Əkin sahələri yaxınlığındakı bitkilərin üzərinə gübrə və dərmanların külək vasitəsilə gəlib çatması mümkündür. Ona görə də belə ərazilərdən şəfalı bitkiləri yığmaq olmaz.

Şəfalı bitkiləri yığarkən diqqət edilməsi ən vacib məsələ təbiətə zərər verməməkdir. Bitkilər planlı şəkildə yığılmalıdır. Rast gəldiyimiz bir bitkini bütünlüklə yığmamalıyıq ki, növbəti mövsümdə orada eyni bitkiləri yenə tapa bilək. Çiçəklərini, yarpaqlarını və ya meyvələrini yığdığımız ağaclarla və kollarla asta davranmalı, budaqlarını qırmamalıyıq.

Həmsöhbətim deyir ki, şəfalı bitkiləri yığmaq istəyən şəxs səhvən zəhərli bitki yığmaqla böyük bir problemlə üzləşəcəyinin fərqində olmalıdır. Bitki yığmağa kömək edən uşaqlara da nəzarət edilməlidir. Qəti olaraq tanımadığımız, bilmədiyimiz bitkiləri yığmamalıyıq. Bitkilər aləmi insan həyatı və fəaliyyətində önəmli yer tutur. Təbii sərvətlər içərisində bərpa oluna bilərək tükənməz hesab edilən dərman bitkiləri xüsusilə seçilir. Lakin əsas məsələ heç də bu tükənməz təbii sərvətin bolluğu deyil, ondan necə və nə qədər səmərəli istifadə olunması məsələsidir.

Muxtar respublikamızda 171 fəsiləyə, 885 cinsə daxil olan 2961 növ ali sporlu, çılpaqtoxumlu və çiçəkli bitkilər yayılıb. Bu, Azərbaycan florası növlərinin 65 faizini təşkil edir. Bu bitkilərdən bəziləri müxtəlif xəstəliklərin müalicəsi və profilaktikasında geniş istifadə olunan bitki qruplarıdır.

Oxucuları dərman bitkilərinin müalicəvi əhəmiyyəti ilə bağlı məlumatlandırmaq üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşı Çinarə Hüseynovanın fikirlərini öyrəndik. O qeyd etdi ki, dərman bitkilərinin müalicəvi xassəsi onların tərkibindəki fizioloji təsiredici fəal maddələrin (efir yağları, mikroelementlər, kumarinlər, müxtəlif vitaminlər, bir sıra turşular və sair) olması ilə əlaqədardır. Bu bitkilərin hər biri müxtəlif dərdlərin müalicəsində qədim zamanlardan istifadə olunur və hal-hazırda da istifadə edilməkdədir. Onlardan məlhəm kimi istifadə olunması o deməkdir ki, xəstəlik üzərindəki effektiv təsirinə görə insanların inamını qazanıb. Belə ki, el arasında istifadə olunanlar sırasında həmərsin, çobanyastığı, kəklikotu, şahtərə, qaraçörəkotu, əməköməci, dəvədabanı, yarpız, əvəlik bitkilərinin adlarına daha sıx rast gəlirik. Bu bitkilərin müalicəvi əhəmiyyəti bir çox insana agah olsa da, çoxları onlardan həddindən artıq və müəyyən edilməmiş həcmdə istifadə edir ki, bu da zamanla orqanizmdə bəzi fəsadların yaranmasına gətirib çıxarır. Bundan əlavə, hər hansı bir orqanımıza xeyirli olan bir bitki başqa bir orqanımız üçün təhlükəli ola bilər. Bütün bunlara görə də insanlar müalicə əhəmiyyətli bitkilərdən istifadə etməzdən əvvəl həkimə müraciət edib onun da rəyini almalıdırlar.

Çinarə xanım onu da bildirdi ki, bütün dərman preparatlarının hazırlanmasında dərman bitkilərindən müxtəlif miqdarda istifadə olunur. Belə ki, müasir dövrdə kimya-əczaçılıq sənayesinin istehsal etdiyi dərman maddələrinin 40 faizini dərman bitkilərinin xammalı təşkil edir. Ürək-damar, mədə-bağırsaq, sinir sistemi, qaraciyər və böyrək xəstəliklərinin müalicəsində istifadə olunan dərman bitkilərinin xammalı 80-90 faizdir. Respublikamızın elmi təbabətində 200 növə yaxın dərman bitkilərindən istifadə edilir. Hər il min tonlarla dərman bitkiləri tədarük olunur ki, bu kütlənin 50 faizi yabanı dərman bitkilərindən ibarətdir.

Oxucularımızın diqqətinə onu da çatdırmağı vacib sayırıq ki, muxtar respublikamızda dərman bitkilərinin istehsalı ilə məşğul olan müəssisə fəaliyyət göstərir. 2010-cu ildə Şahbuz rayonunda yaradılan “Farma Şah” müəssisəsi Şahbuz dağlarında yabanı halda bitən qiymətli dərman bitkilərinin emalı və paketlənməsi ilə məşğuldur. Burada istehsal olunan dərman məmulatlarının muxtar respublika xaricində də satışı həyata keçirilir. “Farma Şah” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Yasin Babayevin bildirdiyinə görə, müəssisənin qarşıya qoyduğu əsas vəzifə muxtar respublika əhalisinin keyfiyyətli dərman bitkiləri ilə təmin edilməsi, hazırlanan məhsulların ixracyönümlü və rəqabətqabiliyyətli olmaqla beynəlxalq standartların tələblərinə cavab verməsidir.

İstehsal səviyyəsi və istehsal etdiyi məhsulların keyfiyyəti yüksək olsa da, təəssüf hissi ilə qeyd edim ki, şəhərdə yaxınlaşıb: “Farma Şah” müəssisəsi haqda nə bilirsiniz? – deyə ünvanladığım suala, demək olar ki, cavab ala bilmədim. Bu, o deməkdir ki, öz istehsal müəssisələrimizə, öz istehsal məmulatlarımızdan istifadəyə biz hələ xeyli biganəyik.

“Min dərd varsa, minbir də dərman var”, – deyən ulularımız ta qədim zamandan öz xəstəliklərini bitkilərdən hazırladıqları dərmanlarla müalicə ediblər. Vaxtilə onlar bu bitkilərin insan üçün əhəmiyyətini dərk edib qorumasaydılar, həmin bitkilər dövrümüzə qədər gəlib çatmayacaqdı. Onlar həm təbii yollarla müalicə metodu, həm də yerli istehsalımız üçün xammal rolunu oynayırlar. Buna görə də bizə köməyi keçən nə varsa, onu qorumalı, başqalarının da kobud rəftarından mühafizə etməli, onların əhəmiyyəti barədə ətrafımızdakıları da maarifləndirməliyik. Çünki bu bitkilərin kökü kəsilərsə, onların faydasından hər kəs məhrum olacaqdır.

✍ **Fatma BABAYEVA**

## Voleybol üzrə muxtar respublika turniri başa çatıb



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş kişilər arasında voleybol üzrə Naxçıvan Muxtar Respublika turniri keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi turnir 2 gün davam edib.*

Muxtar respublika turnirində “Naxçıvan”, “Şərur”, “Babək”, “Ordubad”, “Culfa”, “Şahbuz”, “Sədərək” və “Kəngərli” komandaları birincilik uğrunda mübarizə aparıblar. Olimpiya sistemi üzrə keçirilən turnirin yarımfinal mərhələsində “Şərur” komandası “Şahbuz”u (3:2), “Sədərək” komandası isə “Culfa”nı (3:0) məğlub edərək finala yüksəliblər.

Dünən turnirdə ilk olaraq meydana üçüncü yer uğrunda Şahbuz və Culfa voleybolçuları çıxıblar. Daha inamlı oyun sərgiləyən culfalılar meydanı quru hesablı qələbə ilə tərk ediblər – 3:0. Final görüşü isə daha gərgin idman mübarizəsi şəraitində keçib. “Sədərək” komandasının üzvləri şərurlu həmkarlarını məğlub etməkdə çətinlik çəkiblər. 3:1 hesablı qələbə nəticəsində “Şərur” komandası turnirin qalibi olub.

Sonda qalib komandalara diplom və hədiyyələr verilib.

## *“Gənclər ətraf mühitin çirklənməsinə yox deyir”* devizi altında aksiyalar keçirilir



***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir” devizi altında aksiyalara başlanılıb.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər, Təhsil nazirlikləri, Ali Məclisin Sədri yanında Gənclər Fondu və Yeni Azərbaycan Partiyası rayon təşkilatlarının Heydər Əliyev adına Gənclər birlikləri tərəfindən keçirilən aksiyalarda gənclərin ekoloji biliklərinin zənginləşdirilməsi, onlarda təbiətə məhəbbət hissinin aşılanması məqsədilə xüsusi estetik gözəlliyi olan təbiət ərazilərinə ekoturizm marşrutları üzrə gəzintilər təşkil olunur, təmizlik tədbirləri görülür.

İlk belə tədbirə Şahbuz və Babək rayonlarının gəncləri qatılıblar. Tədbirdə 100-ə yaxın gənc iştirak edib. Gənclər ilk olaraq Batabat yaylağının fauna və flora aləmi, təbiət abidələri ilə tanış olublar. Sonra tədbir iştirakçıları ərazinin təbiət gözəllikləri olan “Zorbulaq”, “Üzən ada” kimi təbiət əraziləri haqqında məlumatlandırılıblar.

Dünən isə Ordubad və Culfa rayonları gənclərinin Ordubad Milli Parkına maarifləndirici ekskursiyası təşkil edilib. Hər iki tədbirdə təşkilatçılar tərəfindən hazırlanmış məlumat bukletləri gənclərə paylanılıb, təbiət ərazilərində təmizlik aksiyası keçirilib.

Qarşıdakı günlərdə bu tədbirlər digər turizm potensialı olan təbiət ərazilərində də davam etdiriləcəkdir.

✍ **Ceyhun MƏMMƏDOV**

## Uşaqların əsərlərindən ibarət rəsm sərgisi



***1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Dövlət Rəsm Qalereyasında uşaqların əl işlərindən ibarət rəsm sərgisi təşkil edilib.***

Muxtar respublikada fəaliyyət göstərən incəsənət və bədii sənətkarlıq məktəblərinin balaca rəsm həvəskarlarının əsərlərinin nümayiş etdirildiyi sərginin açılış mərasimində Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru Hökumə Məmmədlinin, qalereyanın baş fond mühafizi Yadulla Məmmədovun, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Leyla Əlimərdanovanın, rəssamlardan Cavid İsmayılovun, Qəhrəman Tağıyevin çıxışları olub. Çıxışlarda muxtar respublikada rəssamlıq sənətinin inkişafına göstərilən dövlət qayğısından söhbət açılıb, rəssamlığa həvəs göstərən və bu sahədə istedada malik uşaq və yeniyetmələr üçün yaradılan şəraitdən bəhs edilib. Çıxış edənlər sərgidə əsərləri nümayiş etdirilən balaca rəssamları təbrik edib, onlara yeni-yeni uğurlar arzulayıblar.

Sərgidə fəal iştirak edən uşaqlara Naxçıvan Dövlət Rəsm Qalereyasının fəxri fərmanları və hədiyyələr təqdim edilib.

Sonra sərgiyə baxış olub. Balaca rəsmsevərlərdən Namiq Orucovun, Elşad İsmayılovun, Səadət İsmayılzadənin, Nuray Gözəlovanın, Əlirza Əlizadənin və başqalarının əl işlərinə böyük maraq göstərilib. Sərgidə 25 məktəblinin müxtəlif janrlarda 45-dən artıq əl işi nümayiş etdirilir.

✍ **Səbuhi HÜSEYNOV**

## Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Babək rayonunun Şıxmahmud icmasının tender komissiyası icma qrupunun hazırladığı “Yolun təmiri” adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

** Maraq məktubu*

** Nizamnamə*

** Maddi-texniki baza və insan resursları barədə məlumat*

** Son 3 ildə infrastrukturtipli layihələrdə iş təcrübəsinin olması.*

Qeyd olunmuş sənədlər toplusunu 8 iyun 2016-cı il, saat $18^{00}$-a kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Babək rayonu, Şıxmahmud kəndi tender komissiyası icma qrupunun sədri Vüsalə Qafarova***

***Əlaqə telefonu: (050) 543-68-62***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 417